*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri № 7, 2024*
*Səh. 385-392*
*ISSN 2224-9257*
https://doi.org/10.62837/2024.7.385

**ŞAHANƏ MƏMMƏDOVA (KÖÇƏRLİ)**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Email: shahanakocharli89@gmail.com

# SATİRİK MƏTBUATDA CƏHALƏTİN TƏNQİDİ

Bildiyimiz kimi, XX əsrin əvvəlləri Azərbaycan satirik mətbuatı mövzu dairəsi və ideya istiqamətləri baxımından olduqca zəngindir. Bu dövrün satirik mətbuatında cəhalət və nadanlığın tənqidi, riyakar din xadimlərinin ifşası, mədəni geriliyə qarşı mübarizə, əhalinin maarifləndirilməsi kimi mövzular xüsusilə geniş yer tuturdu. Avropada elm və texnikanın inkişaf etdiyi, yeni uğur və nailiyyətlər əldə edildiyi bir dövrdə Şərq xalqlarının, eləcə də Azərbaycanın inkişafdan geri qalması, qəflət yuxusundan hələ də oyanmaması satirik mətbuatın gündəmini məşğul edən əsas problemlərdən biri idi. Satirik "Zənbur" jurnalının 27 mart 1909-cu ildə nəşr olunmuş 3-cü nömrəsində "Evimiz yıxıldı!" başlıqlı felyeton bu baxımdan diqqəti cəlb edir: "Amerikalıların lap işi-gücü qurtarıb! Qramafon çıxardılar, danışmadıq, məftilsiz teleqraf çıxardılar, səbir elədik. Nə bilim, nələr qaldı ki, eləməsinlər, genə səbir elədik. Axırı, a kişilər, görün bu bimürüvvətlər bizim başımıza nələr gətirirlər?! Allah sizin evinizi yıxsın! İstəyirlər, bizi bir parça çörəyə möhtac eləsinlər, uşaqlarımızın gözün ağlar qoysunlar. Biinsaf uşaqları biinsaf! Oturublar qızıl mədəninin içində, kasıb-kusubdan xəbərləri yox ki! Bikarçılıqdan şeytan-şeytan fikirlərə düşüblər. Gündə bir həramzadəlik, gündə bir kələk düzəldirlər ki, fəqir-füqəranın evin yıxsınlar. İndi bir təzə xəbər çıxıb ki, Jozəf adında bir mərdümazar... bir maşın icad edib ki, hər kəs o maşına əlin vursa, onun tamam ürəyindəki fikirlərin aşkar eləsin. Məsələn, bir şəxs yalandan şahid qurub "Quran"a and içsə, o vaxt o şəxsə təklif olunacaq, əlin o maşına sürtsün. Əlin maşına vuran kimi maşın o şəxsin yalan şahid olmaqlığın bildirəcək. Həmçinin adam öldürəni, oğurluq edəni o maşın göstərəcək. Əgər bu xəbər dürüst olsa, bilmirəm, bizim kasıblarımız nə eliyəcəklər!" [1]

Nümunədən də göründüyü kimi, dünyanın qabaqcıl ölkələrində baş verən inkişaf və dəyişiklik gününü oğurluq və qumarbazlıqla keçirən avara insanlarda qorxu və təşvişə səbəb olur, həqiqəti əks etdirməyən əhvalatların meydana çıxmasına şərait yaradırdı. Bir tərəfdə yeni-yeni uğurlara imza atan, günü-gündən tərəqqi edən Qərb dünyası, digər tərəfdə isə adam öldürmək, oğurluq etmək kimi çirkin əməllərinə müxtəlif bəhanələrlə haqq qazandıran cahillərin üstünlük təşkil etdiyi, şirin yuxuya qərq olmuş Şərq dünyasının müqayisəsi güclü təzad yaradırdı.

Lakin xristian dünyası ilə müsəlman aləmi arasındakı fərq yalnız Avropada təzahür edən elmi və texniki inkişafla məhdudlaşmır, həm də iki əks qütbün dünyagörüşü, mədəni səviyyəsi arasındakı təzadla da özünü biruzə verirdi. "Arı" jurnalının 5 fevral

1911-ci ildə nəşr olunmuş 8-ci nömrəsində "Səyahət" başlığı ilə verilmiş felyetonda bu təzadlı vəziyyət belə təsvir olunur: "Bəli, kassanın qabağına çatdıqda xeyli izdiham gördüm. Zənn eylədim, yəqin, bu kassanın qabağında böyük inqilab olacaq. Zira ki, "Leyli və Məcnun" operasında bilet almaq üstündə qabırğa sınmaq əhvalatı gözümün önündə duruyor idi. Lakin öylə olmadı. Kamal ehtiram ilə hər kəs biletini alıb teatroya daxil oldu. Biz də bu izdiham ilə hər kəs öz yerində qərar tutdu. Pərdə çəkildi, hər artist öz rolunda oynadı. Camaat isə gözün səhnəyə dikib həqiqi məbədgah olan ibrət səhnəsindən ibrət götürməkdə idilər. Pərdələr düşdükdə zənn eylədim müsəlman teatrosundakı qatmaqarışıqlar, məsələ on şahılıq bilet alıb əvvəlminci ryadda əgləşmək olacaq. Öylə olmadı. Zalım kafirlər yenə öz yerlərində əgləşdilər" [2, 167].

Avropanın günü-gündən inkişaf etdiyi bir dövrdə müsəlman dünyasının irəliləyə bilməməsinin əsas səbəbləri, buna bais olan kəslər satirik mətbuatda daim araşdırılır və ifşa olunurdu. Satirik "Arı" jurnalında bu problemin əsas səbəblərindən biri kimi məktəblərə lazımı diqqət və yardımın verilməməsi misal olaraq göstərilirdi:

...Verməyir xəlq niyə məktəbə bir neçə şahı?
Olub hər məktəbin, əfsus, hələ yüz bədxahı!
Bunların baisi kimdir bu müsəlman içrə?
Sanma, şeytandır gəlib firqəyə insan içrə!
[2, 49]

Jurnalın 25 dekabr 1910-cu il tarixli 2-ci nömrəsində çap olunmuş bu şeir nümunəsi "Xadim" imzası ilə verilmişdir. Qulam Məmmədlinin "İmzalar" kitabından əldə etdiyimiz məlumata əsasən "Xadim" imzası ilə dövri mətbuatda 2 müəllif: Məmmədsadıq Axundov və Balaqardaş Əliquluzadə çıxış etmişdir. M.Axundov "Xadim" imzası ilə 1902-1918-ci illər arasında qısa fasilələrlə Bakıda rus dilində nəşr olunan dövri mətbuat orqanı "Baku" qəzetinin 1906-cı il buraxılışında, B.Əliquluzadə isə Haşım bəy Vəzirovun rəhbərliyi ilə nəşr olunan "Səda" qəzetində çıxış etmişdir. Yuxarıda verilmiş şeir nümunəsini ictimai xadim, jurnalist, publisist və tərcüməçi olan M.Axundovla müqayisədə şair və tərcüməçi olan B.Əliquluzadəyə aid etmək daha düzgün olar. "Səda" qəzeti və satirik "Arı" jurnalının nəşr illərini də nəzərə alsaq, bu şeirin müəllifinin B.Əliquluzadə olduğunu düşünməyə daha çox əsas yaranar.

"Arı" jurnalının 22 yanvar 1911-ci il tarixli 6-cı nömrəsində də müsəlman aləminin geridə qalmasının səbəblərini jurnalın redaksiya heyəti yenə eyni nöqteyi-nəzərdən izah edərək yazırdı: "Bəli, bizim böylə olmağımıza bais dövlətlilər, milyonerlər, axundnümalardır ki, kimisi elmi bizə həram buyurdu, kimisi pulundan keçməyib məktəblərə vermədi, kimisi biz füqəraya rəhm etmədi, ac qaldıq. Ac qaldıqda insan niyyətindən qıraq, islamiyyətə zidd işlər gördük" [2,126].

XX əsrin əvvəlllərində cəhalət və nadanlığın tənqidinə, din və fanatizmin ifşasına yer verən satirik mətbuat orqanları içərisində "Molla Nəsrəddin" və "Zənbur" kimi jurnallar xüsusi seçilirdi. "Molla Nəsrəddin" jurnalının din və fanatizm əleyhinə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 385-392*
mübarizəsini təhlil edən görkəmli professor Nazim Axundov yazırdı: "Jurnalın din və fanatizmə qarşı mübarizəsi o dərəcə şiddətli idi ki, bəzən onun məhz bu məqsədlə nəşr olunduğunu düşünürdülər. 1905-1907-ci illər inqilabı dövründə ruhani qüvvələrin ən böyük əngəl olduğunu dərk edən "Molla Nəsrəddin" ictimai həyatın bütün sahələrində hər növ dini-idealist görüşlərə qarşı amansızcasına mübarizə aparırdı" [3, 31].

Professor Nazim Axundov satirik "Zənbur" jurnalında da dinə münasibət məsələlərini təhlil edirdi: "Zənbur"da din əleyhinə mübarizə, bəzi hallarda yüksək bir səviyyəyə, ateist təbliğata qədər çatdırılırdı...din və dindarlar xalqın həyatına işıq salan bütün yolları qəsdən bağlayırlar. "Zənbur" dəfələrlə bildirirdi ki, heç vaxt onun materialları dindarları, varlıları sevindirə bilməz" [3, 76].

Qeyd etdiyimiz məsələlərin "Zənbur" da əks olunmasına münasibət bildirən professor İslam Ağayev isə bu barədə belə yazırdı: "Jurnalın yazılarının böyük bir hissəsi nadanlıq, avamlıq, cəhalət və din xadimlərinin yaramaz əməllərinə qarşı yönəldilmişdir. Kiçik müxbir yazısından tutmuş ta irihəcmli felyetonlaradək bu məsələlərdən bəhs edilir. Lakin "Zənbur"un dinə münasibətində bir liberalizm vardır. Bir çox hallarda jurnal fırıldaqçı din xadimlərini pisləyib, onları ədalətli, dindar olmağa dəvət edirdi" [4, 65].

Dua yazdırmaq, fala baxdırmaq, caduya inanmaq, pir və ocaqlara sığınmaq, göz və nəzərdən ehtiyat etmək kimi gülünc adət və ənənələrin ifşası, din və xurafatın tənqidi satirik mətbuatın əsas mövzularından idi. İnsanların öz xəstəlik və dərdlərinə çarəni pir və ocaqlarda axtarması, xilas yolunu dua yazdırmaqla, müxtəlif elmi əsası olmayan tədbirlər görməklə tapmağa çalışması bir tərəfdən gülüş, digər tərəfdən isə bu insanların acınacaqlı halına qarşı kədər və mərhəmət hissi doğururdu. "Arı" jurnalının 29 yanvar 1911-ci ildə nəşr olunmuş 7-ci nömrəsində "Göz dəymək" başlığı ilə verilmiş felyetonda atanın cahil əqidəsinin qurbanı olan yeni doğulmuş körpənin labüd sonluğu bu fikrə bariz nümunədir. Övladına nəzər dəydiyini düşünən ata onun müxtəlif yollarla: dua yazdırmaq, duanın suyunu uşağa içirtmək, tas qurdurmaq, pirə aparmaqla dərdinə çarə tapmağa çalışır. Lakin bu tədbirlər, sözsüz ki, heç bir nəticə vermir. Felyetonun sonunda atanın dilindən bu kinayəli sözlər verilir: "Çünki uşağa göz dəgibmiş, o uşaq ömrünü sizə bağışladı. Bax mənə aşkar oldu ki, səbəb bietiqadlığımdır..." [2, 152]

Satirik mətbuat cəmiyyətdəki bu qüsurları göstərməklə xalqın oyanmasına, öz səhvlərindən nəticə çıxarmasına çalışırdı: "Çünki cəmi müsəlmanların başı, dişi ağrıyanda gedirlərdi Molla Ələkbərin yanına. O da kitabə baxıb, dərdin tapıb, ya bir qara toyuq yumurtasına nəzlə duasını yazıb verərdi ki, apar yatdığın yerdə başın üstən as, yainki bir qəmişə dua oxuyub, bağlayıb verərdi ki, apar məsciddə qoy və beş-on şahı qələm haqqı alırdı" [2, 250-251].

"Zənbur" jurnalının 27 mart 1909-cu ildə nəşr olunmuş 3-cü nömrəsində "Gülsüm nənə" imzası ilə verilmiş "Evlərdə" başlıqlı dialoq nümunəsində köhnə inanclar, cahil adət və ənənələr ifşa olunurdu: "Zahının yanında gərək bir köhnə xəncər

qoyasan, bir Şıxverdi soğanını şişə çəkib başının üstündə divara söykəyəsən, bir parça çörək də ayrı şişə çəkib onun yanında qoyasan, daha yaxşı olur. Əgər zahının başının üstünə divarda bir çəprast şəkil çəkəsən, lap xatircəm ola bilərsən. Çünki molla deyir ki, cin-şəyatinin qeyri məzhəbi də vardır. Dam qayıranda içinə bir yumurta da gərək salasan, ta uşağa və anasına gələn qadalar və bəlalar o yumurtaya dəysin" [1].

Teatra, məktəbə getməyi haram və dinə zidd əməl hesab edən, qəzet və jurnal oxuyanları "məlun" adlandıran mollalar və şeyxlər insanların avamlığından istifadə edərək min dona girir, məscidlərin xeyrinə pul yığmaq adı ilə ciblərini doldururdular. Axund və mollaların din pərdəsi altında gizlənərək özlərinə qazanc mənbəyi yaratması "Zənbur"da satirik dillə ifşa olunurdu: "Aralarında olan şərtnamənin 184-cü fəslində Quran oxuma üçün zeyildə olan qiymətləri qət ediblər ki, bir qəpik də əksik olmasın: 1) Ramazan ayında 5 manat; 2) Rəcəb şəbanda 3 manat; 3) Əğniya vəfatında 3 manat; 4) Yəsnin biri yarım manat; 5)Əlrəhan bərkdən oxusalar 3 abbası, yavaşdan 6 şahı; 6) Qəzet-jurnal yazan, oxuyanlar üləmalara mənfəət versələr, müsəlmandırlar, mənfəətləri çatmasa, Mirzə Həsən Təbrizinin rəyində kafir olacaqlar" [5].

"Kim fonoqrafa qulaq assa, odur əhli-əzab", "Ruzi-məhşər musiqi əhli gərək olsun kəbab" deyən, teatra getməyənləri "əməli-saleh" hesab edən şeyx və mollalar insanları dünya nemətlərindən çəkindirirdilər. Pul və var-dövlətə görə əqidələrindən belə dönən bu mollalar özlərinin qeyri-adi qüdrət sahibi olmalarından dəm vururdular: "Camaat! Hədisdə vardır ki, bir molla qəbiristanın kənarından ötsə, qəbiristanda dəfn olan əmvatın cəmi günahları bağışlanar" [1].

Öz çirkin əməllərinə dini don geyindirən, əhaliyə dinin və "Quran"ın dəyərindən, Allahın insanlara buyuruqlarından vəz verən axund və mollaların "Quran" a verdikləri "dəyər" satirik "Mirat" jurnalında bu cür əks olunurdu: "Amma "Quran"ın mənasını ögrətmək məsələsinə gəldikdə "Quran"ın mənasını bilməyən heç nəfər də yoxdur. Hətta əlində "Quran" oxuyan bir hacının yanına görürsən bir erməni gəlir, təsbihi qoyur "Quran"ın arasına, diyor: "İyirmi prosentdən aşağa pul verməərəm!" [2, 404]

İnsanlara tərki-dünya həyat tərzi yaşamağı aşılayan, sözü ilə əməli arasında böyük uçurum olan mollalar "Arı" jurnalının 1911-ci il 15 yanvar tarixli nömrəsində ifşa olunurdular: "1) O kimdir ki, diyor: "İçki içməyin", – özü içiyor. 2) O hansı molladır ki, "oğurluq eyləməyin", – diyor, lakin özü oğurluq ediyor" [2, 121].

Axund və mollalar insanları olmayacaq hadisələrə və möcüzələrə inandırır, uydurduqları əhvalatlarla əhalini şirin yuxuya qərq edirdilər: "Axund Cümə məscidində deyir: "Həzərat, qiyamətin günündə behişt əhlinə gavmahi ciyərindən verəcəklər, onda qoca kişilər olacaqlar on yeddi yaşında, qoca arvadlar on dörd yaşında, korlar olacaqlar gözlü, karlar qulaqlı, qəzet oxuyanlar kafirlərnən məhsur olacaqlar!" [6]

Satirik mətbuatda təhsil ocaqları və məktəblərə qarşı laqeyd münasibətə təəssüf hissi ilə yanaşılır, məktəbə gedənlərin "biiman" hesab olunması gülüş obyektinə çevrilirdi: "...məktəbə ya mədrəsəyə, jurnala ya qeyri şeyə bircə qəpik sərf eyləsən, kafir olarsan, bunların özləri çox fitnədir, həm kani-fəsadın özüdür. Hacı, mən söz verirəm, helə müftinlərə mən lən eyləyim, xalq arasında hamının küfrünə, məlunluğuna hökm eləyim, çünki bunlar millət arasına nümami-fitnə salırlar, yetənə böhtan atırlar, dini dinara satırlar, bu sayaq pul qazanırlar" [7].

Satirik mətbuatda müzakirə olunan problemlərdən biri də təhsil sistemindəki naqisliklərin və qüsurların yaratdığı mənzərə idi. Belə ki, cəmiyyətdə hökm sürən nadanlığın əsas səbəblərindən biri də məhz ölkədəki təhsil və tədris sisteminin gülünc və eyni zamanda acınacaqlı vəziyyəti idi. Ümumiyyətlə, həmin dövrdə təhsil və tədrisin idarəçiliyi daha çox axund və mollaların əlində idi. Bu isə aylarla və illərlə davam edən, heç bir nəticəsi olmayan vaxt israfı demək idi. Mollalar şagirdlərə mənalarını bilmədiyi cümlə və mətnləri əzbərlətməklə mövhumat əsiri olan yeni cahil nəsil yetişdirirdilər. Onların naqis və gülünc tədris üsulu yeni nəsli uçuruma sürükləyirdi. "Arı" jurnalının 8 yanvar 1911-ci ildə nəşr olunmuş 4-cü nömrəsində "Qarınqulu bəy" imzası ilə verilmiş hekayədə mollaxana tədris sisteminin gülünclüyü bu cür ifşa olunur: "Çox yırğalandım, gördüm dərs yadıma düşmür. Öz-özümə dedim: "Gəl bayaqkı hava ilə oxu, bəlkə, yadına düşə". Hava ilə də oxudum, olmadı. Axırda naəlac üzümü tutdum yoldaşım Cəfərə: "Ay yoldaş, bu yazanlar nə sözdür?", – dedim. Cəfər yazılan dərsimə baxıb: "Qarınqulu bəy, mən il yarım bundan qabaq oxumuşam, çoxdankı sözlər olduğuna görə yadımda qalmayıb. Qoy sənin üçün yanımdakı Fərzəlidən xəbər alım. O, "Quran" dan sonra iki kitab oxuyub qurtarıb", – dedi, dərsimi məndən alıb Fərzəliyə verdi: "Sən Allah, Fərzəli, bu dərs nə dərsidir?!" Zalım Fərzəli əlinə alan kimi dedi: "Bu dərs "hu Əl-Fatihə-aləmin" dərsidir". Eylə bu sözləri eşidən kimi dəxi qoymadım canına yel dəysin. Mollaxana uşaqlarının səsinə səs qarışdırıb "hu Əl-Fatihə aləmin" deməkdə idim" [2, 96-97].

Bundan başqa, övladlarını məcburi şəkildə mollaxanaya göndərməklə mollaların naqis təlim və tərbiyə üsulunun mövcudluğuna şərait yaradan avam ata-analar da satirik mətbuatın tənqid hədəfinə çevrilirdi: "Molla Qulam, bilirsiniz nə var, bu uşaq elə bil mənim deyil, sənindir. Nə tövr ki lazımdır, gərək buna səy edəsiniz. Mən o uşağı döyüləndə inciyən kişilərdən deyiləm. Bir söz, "sümüyü mənim, əti sənin". Vəssəlam!" [2, 53]

Diqqəti çəkən digər cəhət isə mollaların şagirdlərə qarşı qeyri-insani münasibəti və onlardan bir çox hallarda kölə kimi istifadə etməsi idi: "Qara məscid yanındakı məktəb bir qəribə məktəbdir, heç Yevropada da belə məktəb olmaz! Keçmə yarıncı sinfindən... Yarıncı sinfin müəllimi nə müəllim! Bir gündə balaca şagirdlərə həmi oxumaq, həmi yazmaq öyrədir... onun qapazı, onun şapalağı hansı şagirdə dəyirsə, o saat molla olur... və uşaqlardan beləsi var ki, müəllimin zəhmətin azaldır və hər səhər tezdən gəlib müəllimə kömək eləyir; məktəbi süpürür, bozbaş bişirir, paltarını yuyur

və qeyrə və müəllim o qədər zəhmət çəkir ki, saat doqquzadək yuxudan ayılmayır” [6].

Satirik mətbuatda cəhalət və nadanlığın tənqidi, din və fanatizmin ifşası məqsədilə satirik şeir, felyeton, məqalə, karikatura kimi vasitələrdən istifadə olunurdu. Bundan başqa, “Atalar sözü”, “Teleqraf xəbərləri”, “Poçt qutusu”, “Telefonumuz”, “Sual və cavab” kimi başlıqlarla verilmiş satirik nümunələr də öz növbəsində bu işdə böyük rol oynayırdı. Qeyd olunanlara misal olaraq satirik “Kəlniyyət” jurnalına nəzər salsaq, görərik ki, jurnalın 31 may 1912-ci il tarixli 2-ci nömrəsində “Sual və cavab” başlığı ilə dərc olunmuş nümunədə müsəlmanların geri qalmasının, elm və mədəniyyətin onlara işıq sala bilməməsinin səbəbi soruşulur və verilən suala bu cür cavab alınır: “Dinməz-söyləməz, gözüyumulu, ağzıbağlı oturan cavanlarımızdan, dünyadan bixəbər, fikri paslanmış qocalarımızdan, namusu belinə bağlayan qoçularımızdan, mövhumat içində boğulan analarımızdan, on beş yaşınacan evdə saqqız cibinə qoyub, milçək tutmaq ilə əlləşən qızlarımızdan xəbər alınız, sizə desinlər” [8, 20].

Din və fanatizm əleyhinə mübarizə aparan, əhali arasında maarifi və mədəniyyəti yayaraq xalqın şüurunu oyatmağa çalışan satirik mətbuat, xüsusilə də “Molla Nəsrəddin”, “Zənbur”, “Kəlniyyət” kimi mübarizədə ardıcıl olan jurnallar senzuranın və mürtəce qüvvələrin ciddi təqibinə məruz qalırdı. Günü-gündən düşmənləri artan bu satirik jurnallar ciddi yoxlanışlardan keçir, çap olunması qadağan olunmuş materiallar ilə əlaqədar bəzən boş qalan səhifələri də olurdu. Təqiblərə davam gətirə bilməyən satirik jurnalların nəşrləri müxtəlif vaxtlarda dayandırılsa da, din və fanatizmə, cəhalət və geriliyə qarşı ardıcıl mübarizə sayəsində bu satirik jurnallar XX əsr mətbuat tariximizdə silinməz izlər buraxmış və insanların şüurunun oyanmasında, dünyada baş verən hadisələrdən nəticə çıxarmasında əhəmiyyətli rol oynamışdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. “Zənbur”, “Evimiz yıxıldı”, “Evlərdə”, “Telefonumuz”, Bakı, “Kaspi” mətbəəsi, 27 mart 1909, № 3
2. Vüqar Əhməd, Dilbər Rzayeva, “Arı” və “Mirat” jurnalları yeni əlifbada”, “Ulu” İKF, 2021
3. Nazim Axundov, “Azərbaycan satira jurnalları (1906-1920-ci illər)”, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı-1968
4. İslam Ağayev, “Satirik “Zənbur” jurnalı”, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı-1969
5. “Zənbur”, “Bəşarət”, Bakı, “Kaspi” mətbəəsi, 17 aprel 1909, № 6
6. “Zənbur”, “Məşqətədən”, “Təzə üsul”, Bakı, “Kaspi” mətbəəsi, 3 aprel 1909, № 4
7. “Zənbur”, “Uzun dərya”, Bakı, “Kaspi” mətbəəsi, 10 aprel 1909, № 5

**8.** Vüqar Əhməd, Dilbər Rzayeva, "Kəlniyyət" satirik jurnalı yeni əlifbada (1912-1913)", Bakı, "PrintMe" 2022
**9.** Qulam Məmmədli, "İmzalar", Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1977

## Xülasə

Məqalədə XX əsrin əvvəllərində Azərbaycan satirik mətbuatında mühüm yer tutan cəhalət və nadanlığın tənqidi, riyakar din xadimlərinin ifşası, mədəni geriliyə qarşı mübarizə, əhalinin maarifləndirilməsi kimi məsələlərə nəzər salınır. XX əsrin əvvəllərində cəhalət və nadanlığın tənqidinə, din və fanatizmin ifşasına yer verən satirik mətbuat orqanları içərisində "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət" kimi jurnallar xüsusi seçilirdi. Satirik mətbuatda müzakirə olunan problemlərdən biri də təhsil sistemindəki qüsurların yaratdığı mənzərə idi. Belə ki, cəmiyyətdə hökm sürən nadanlığın əsas səbəblərindən biri də məhz ölkədəki təhsil və tədris sisteminin gülünc və eyni zamanda acınacaqlı vəziyyəti idi. Din və fanatizm əleyhinə mübarizə aparan, əhali arasında maarifi və mədəniyyəti yayaraq xalqın şüurunu oyatmağa çalışan satirik mətbuat, xüsusilə də "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət" kimi mübarizədə ardıcıl olan jurnallar senzuranın və mürtəce qüvvələrin ciddi təqibinə məruz qalırdı. Təqiblərə davam gətirə bilməyən satirik jurnalların nəşrləri müxtəlif vaxtlarda dayandırılsa da, bu satirik jurnallar XX əsr mətbuat tariximizdə silinməz izlər buraxmış və insanların şüurunun oyanmasında, dünyada baş verən hadisələrdən nəticə çıxarmasında əhəmiyyətli rol oynamışdır.

## CRITISIZM OF IGNORANCE IN THE SATIRICAL PRESS

**Shahana Mammadova (Kocharli)**

## Resume

This article sheds light on issues such as criticism of ignorance, exposure of fanaticism, struggle against cultural backwardness, education of the population, which played an important role in the Azerbaijani satirical press at the beginning of the 20$^{th}$ century. Satirical magazines such as *Molla Nasreddin, Zanbur, Kalniyyat,* which criticized ignorance and exposed fanaticism, occupied a special place in the satirical press. One of the problems discussed in the satirical press was the picture created by the deficiencies in the education system. The satirical press, which fought against religion and fanaticism and tried to awaken the people by spreading education, was subjected to serious persecution by censorship and reactionary forces. Although the publication of satirical magazines was stopped at various times, these satirical magazines played an important role in awakening people and making them aware of the innovations in the world.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 385-392*

## КРИТИКА НЕВЕЖЕСТВА В САТИРИЧЕСКОЙ ПРЕССЕ

**Шахана Мамедова (Кочарли)**

**Резюме**

В данной статье освещены такие вопросы, как критика невежества, разоблачение фанатизма, борьба с культурной отсталостью, просвещение населения, которые играли важную роль в азербайджанской сатирической прессе начала 20 века. В сатирической прессе особое место занимали такие сатирические журналы, как «Молла Насреддин», «Занбур» (Оса), «Калнийят», критиковавшие невежество и разоблачавшие фанатизм. Одной из проблем, обсуждавшихся в сатирической прессе, была картина, создаваемая недостатками системы образования. Сатирическая пресса, боровшаяся с религией и фанатизмом и пытавшаяся пробудить народ путем распространения оброзования, подвергалась серьезным гонениям со стороны цензуры и реакционных сил. Хотя издание сатирических журналов в разное время прекращалось, эти сатирические журналы сыграли важную роль в пробуждении людей и ознакомлении их с нововведениями в мире.

**Rəyçi: fil.e.d., professor Vüqar Əhməd**